# Küçə ticarətinə inzibati baryerlərin müəyyənləşdirilməsi



Qubad İbadoğlu
İqtisadi Tədqiqatlar Mərkəzi

# Məzmun

1. Azərbaycanda küçə ticarətinin yayılma dərəcəsi və problemləri
2. Küçə ticarətinə dair müxtəlif ölkələrin təcrübələri
3. Küçə ticarətinə inzibati bayerlərin müəyyənləşdirilməsi ilə bağlı dərinləşdirilmiş müsahibələr
4. Nəticə və təkliflər

# Azərbaycanda küçə ticarətinin yayılma dərəcəsi və problemləri

1

# Azərbaycanda küçə ticarəti

- Azərbaycanda küçə ticarəti əsasən insanların gur olduğu ərazilərdə geniş təşəkkül tapıb. Ölkə əhalisinin əsasən Bakı şəhərində məskunlaşdığını və işlədiyini nəzərə alsaq paytaxtın küçə və meydanlarında, səkilərdə, bazarların ətrafında, avtobus dayanacaqlarında, metro stansiyalarının giriş-çıxışlarında, məhəllələrdə küçə ticarətinə rast gəlmək mümkündür.

# Azərbaycanda küçə ticarətinin tənimlənməsi problemləri

- Hüquqi tənzimlənmə *(qanun, normativ aktlar);*
- İnstitutsional tənzimləmə *(Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və xidmət departamenti bazarlarda, yarmarkalarda və ticarət mərkəzlərində ticarət və xidmət qaydalarının gözlənilməsinə nəzarəti həyata keçirir və bu sahədə qanun pozuntularının aradan qaldırılması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür);*
- Vergi tənzimlənməsi (*səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən istifadə etməklə pərakəndə satış fəaliyyəti*);
- İnzabati tənzimləmə *(İnzibati Xətalar Məcəlləsinə edilən son əlavə və dəyişikliklərdən sonra müəyyən edilməmiş yerlərdə malların satılması və ya işlərin (xidmətlərin) göstərilməsinə görə cərimənin məbləği 80 manat müəyyən olunub.).*

# Küçə ticarəti düzgün tənzimlənmədiyi hallarda yaranan çətinliklər

- Qeyri-formal iqtisadiyyat genişlərir;
- Vergidən yayınma halları artır;
- Sosial ödənişlərdən yayınma imkanı yaranır;
- Korrupsiya üçün münbit şərait yaranır;
- Mənşəyi bilinməyən, keyfiyyətsiz və müddəti keçmiş malların satışı üçün imkanlar yaranır;
- Nəqliyyat vasitələrinin və pyadaların hərəkəti çətinləşir;
- Şəhərin görkəminə xələl gəlir;
- İstehlakçıların hüquqlarını qorumaq imkanları azalır;
- Satıcıların əmək və sosial hüquqlarını təmin etmək sahəsində çətinliklər yaranır.

# Küçə ticarətinin yaratdığı üstünlüklər

- Əlavə məşğulluq və qazanc imkanları yaranır;
- Məhsulların ticarəti daha kompakt, asan şəkildə təşkil olunur;
- Sahibkarların və istehlakçıların xərcləri azalır;
- Sənətkarlığın və xalq yaradıcılığının inkişafına stimul yaranır.

2

# Küçə ticarətinə dair müxtəlif ölkələrin təcrübələri

# Küçə ticarətinə dair müxtəlif ölkələrin təcrübələri

| Ölkə | Kücə ticarətinə icazə verilən yerlər | Küçə ticarətində satılan əsas məhsullar | Küçə ticarətinin tipləri |
|---|---|---|---|
| **Çexiya Respublikası** | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, qəzet, paltar, texnika, fast food, güllər, suvenirlər, antik əşyalar | Küçə bazarları, çadırlar |
| **İspaniya** | Xüsusi meydanlar, məhəllələr, bazarlar | Ərzaq məhsulları, qəzet, paltar, fast food, güllər, suvenirlər, antik əşyalar, ev heyvanları, rəsm əsərləri | Küçə bazarlar, kiosklar, xususi avtomobillərdə satış, piştaxttalarda satış |
| **İsveç** | Xüsusi meydanlar, bazarlar, kücələr, dizayner yarmarkaları | Ərzaq məhsulları, qəzet və jurnallar, güllər, sənətkarlıq əşyaları, əl işləri, incəsənət işləri | Küçə bazarları, kiosklar, dizayner yarmarkaları |
| **İtaliya** | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, qəzet, fast food, güllər, suvenirlər, antik əşyalar | Küçə bazarlar, kiosklar, piştaxttalarda satış |
| **Çin** | Xüsusi meydanlar, bazarlar | Ərzaq məhsulları, paltar, texnika, zinət əşyaları, fast food, güllər, ev heyvanları | Küçə bazarları, piştaxtalar, çadırlar, səyyar mətbəxlər |
| **Yaponiya** | Xüsusi bazarlar | Ərzaq məhsulları, paltar, texnika, qab-qacaq, kitablar, fast food | Küçə bazarları, ticarət avtomatları, kiosklar, çadırlar, piştaxtalar, |
| **Türkiyə** | Xüsusi meydanlar, bazarlar, piyada keçidləri, məhəllələr | Ərzar məhsulları, paltar, zinət əşyaları, xalçalar, ətriyyat, texnika | Küçə bazarları, kiosklar, piştaxttalar |
| **Rusiya** | Bazarlar, piyada keçidləri | Ərzar məhsulları, paltar, texnika, ev heyvanları | Küçə bazarlar, kiosklar, xüsusi avtomobillərdə satış, piştaxttalarda satış |

3

# Küçə ticarətinə inzibati baryerlərin müəyyənləşdirilməsi ilə bağlı dərinləşdirilmiş müsahibələr

# Küçə ticarəti ilə bağlı dərinləşdirilmiş müsahibənin obyektləri

- Küçə ticarəti ilə bağlı dərinləşdirilmiş müsahibə ərzaq, qeyri-ərzaq, ət, meyvə, un məmulatları, təmir sexi, metronun giriş və çıxışlarındakı satış məntəqələrini əhatə etməklə 22 sahibkar arasında keçrilib.

- Küçə ticarətiylə bağlı  dərinləşdirilmiş müsahibə Bakı şəhərində və onun müxtəlif ərazilərində  ərzaq, qeyri-ərzaq, ət, meyvə, un məmulatları satışı, təmir xidməti  ilə məşğul olan sahibkarlar arasında keşirilib. Bununla yanaşı  metro stansiyalarının keçidində  və İçərişəhər ərazisində  xırda sahibkarlıqla məşğul olanlar da müsahibəyə cəlb olunub.

# Dərinləşdirilmiş müsahibənin sualları

- 1.Küçə ticarətinə başlamaq üçün hansı mərhələlər var və hara müraciət edirsiniz?
- 2. İşi başlamaq üçün rəsmi və qeyri-rəsmi nə qədər xərc tələb olunur?
- 3.Fəaliyyət  zamanı hansı rəsmi və qeyri-rəsmi ödənişlər olur?
- 4. Fəaliyyət  zamanı hansı inzibati baryerlərlə qarşılaşırsınız?

# 1.Küçə ticarətinə başlamaq üçün hansı mərhələlər var və hara müraciət edirsiniz?

| | |
|---|---|
| Sahibkar | • Yerin seçilməsi |
| İcra hakimiyyəti | • Razılığın alınması |
| Polis | • İcazənin alınması |

# 2. Fəaliyyətə başlamaq üçün qeyri-rəsmi nə qədər ödəniş tələb olunur?

| | İcra hakimiyyəti | Polis | MKİS | Cəmi |
|---|---|---|---|---|
| Ərzaq | 500 | 200 | 100 | 800 |
| Meyvə | 300 | 500 | 200 | 1000 |
| Ət | 600 | 400 | ---- | 1000 |
| Təmir sexi | 200 | 200 | 100 | 500 |
| Un məmulatları | 100 | 100 | ---- | 200 |

*Qeyd: Şəhərin hansı hissəsində yerləşməsindən asılı olaraq xərclər dəyişir*

# 3.Fəaliyyət dövründə hansı rəsmi və qeyri-rəsmi ödənişlər edilir?

| | İcra hakimiyyəti | Polis | MKİS | Ticarət və Xidmət departamenti | Vergilər Nazirliyi | Gigiyena və Epidemiologiya İdarəsi | Baytarlıq İdarəsi | Standartlaşdırma Metrologiya və Patent üzrə Dövlət Komitəsi | Nəqliyyat Nazirliyi | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Ərzaq** | 50 | 20 | 10 | 20 | 20 | 10 | ---- | 10 | ---- | 140 |
| **Meyvə** | 50 | 50 | 10 | ---- | ---- | 10 | ---- | ---- | ---- | 120 |
| **Ət** | 50 | 20 | ---- | ---- | 20 | 20 | 20 | ---- | ---- | 130 |
| **Təmir sexi** | ---- | 50 | ---- | ---- | ---- | ---- | ---- | ---- | 50 | 100 |
| **Un məmulatları** | ---- | 20 | 10 | ---- | ---- | 10 | ------ | 20 | ---- | 60 |

# 4. Fəaliyyət zamanı hansı inzibati baryerlərlə qarşılaşırsınız?

## Ərzaq

- İcra nümayəndəliyi
- MKİS
- Polis
- Vergi
- Ticarət Departamenti
- Gigiyena və Epidemiologiya İdarəsi
- Standartlaşdırma metrologiya və Patent

## Meyvə

- İcra nümayəndəliyi
- Polis
- MKİS
- Gigiyena və Epidemiologiya İdarəsi

## Ət

- İcra nümayəndəliyi
- Polis
- Vergi
- Baytarlıq idarəsi
- Gigiyena və Epidemiologiya İdarəsi

# 4. Fəaliyyət zamanı hansı inzibati baryerlərlə qarşılaşırsınız?

| Təmir sexi | Un məmulatları | Qəzet |
| --- | --- | --- |
| Nəqliyyat Nazirliyi | Standartlaşdırma, metrologiya və Patent üzrə Dövlət Komitəsi | İcra hakimiyyəti |
| Polis | Polis | Polis |
| | MKİS | |
| | Gigiyena və Epidemiologiya İdarəsi | |

4

# Tövsiyələr

# Tövsiyələr

- Tənzimləyici qanunverici bazanın yaradılması;
- İnstitusional əsasda səlahiyyətlər bölgüsünə yenidən baxılması;
- Küçə ticarətinə patent vergi və ya lisenziya sisteminin tətbiqi;
- Küçə ticarəti ilə məşğul olan işçiləri əhatə edən ayıca sosial sığorta növünün tətbiq olunması;
- Kücə ticarəti ilə məşğul olanların assosiasiyasının yaradılması;
- Yaradılacaq Assosiasiyanın Streetnet İnternasional təşkilatına üzv olması.

# Təşəkkürlər

## Suallar